Azərbaycan Respublikası Prezidentinin “Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında” 23 dekabr 2011-ci il tarixli, 1927 nömrəli Sərəncamının icrası ilə əlaqədar

**ƏMR EDİRƏM:**

1. Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsinə dair Təhsil Nazirliyinin tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan MR Təhsil naziri, rayon, şəhər təhsil şöbələrinin, idarələrinin müdirləri, ali, orta ixtisas, ilk-peşə ixtisas təhsili müəssisələrinin rəhbərləri tədbirlər planının icrasını təmin etsinlər və görülmüş işlər barədə 25 noyabr 2012-ci il tarixinədək Nazirliyə məlumat versinlər.

3. İctimaiyyətlə əlaqə şöbəsi (B. Hüseynzadə) əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və tədbirlər planı ilə birlikdə Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

4. Ümumi şöbə (X. Fərəcov) əmr və tədbirlər planının çoxaldılıb yerlərə göndərilməsini təmin etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini Q. Novruzova həvalə olunsun.

***Misir MƏRDANOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***27 aprel 2012-ci il***

***№668***

---

**Əlavə**

Azərbaycan Respublikası Prezidentinin “Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında” 23 dekabr 2011-ci il tarixli, 1927 nömrəli sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər planı